**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# GƏNCƏ-QAZAX İQTİSADİ-COĞRAFİ RAYONUNDA TURİZM-REKREASİYA EHTİYATLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

İxtisas: 5402.01–Tarixi coğrafiya, siyasi və rekreasiya coğrafiyası

Elm sahəsi: Coğrafiya

İddiaçı: **Elnarə Ərşad qızı İsmayılova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universiteti “Turizm biznesi” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** coğrafiya elmləri doktoru, dosent
**Zakir Namin oğlu Eminov**

**Rəsmi opponentlər:** coğrafiya elmləri doktoru, professor
**Neron Aslan oğlu Babaxanov**

coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Rəhman Saleh oğlu Səfərov**

coğrafiya üzrə fəlsəfə doktoru
**Səbuhi Əlibala oğlu Talıbov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu nəzdində fəaliyyət göstərən ED1.23 Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: Coğrafiya elmləri doktoru, dosent
Məhəmməd Abdu oğlu Abduyev

Dissertasiya şurasının elmi katibi: Coğrafiya üzrə fəlsəfə doktoru, dosent
Zaur Tahir oğlu İmrani

Elmi seminarın sədri: Coğrafiya elmləri doktoru, professor
Rza Nadir oğlu Mahmudov

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Turizm sektoru təbii sərvətlərdən səmərəli istifadə, əmək ehtiyatlarının işə cəlb edilməsi, istehsalın artırılması, xidmət sahələrinin təkmilləşdirilməsi və turizm məhsullarının müasir standartlara uyğunlaşdırılaraq dünya bazarına çıxarılmasına xidmət göstərən təsərrüfat sahəsidir. Son dövrlər turizm regionların davamlı inkişafına imkan verən əsas fəaliyyət sahəsinə çevrilmişdir.

Azərbaycan Respublikasında turizm sektoru ilə əlaqədar hazırlanan dövlət proqramları, təkmilləşdirilən normativ-hüquqi baza və s. regionlarda bu sahənin inkişafını sürətləndirmişdir. Gəncə-Qazax iqtisadi-coğrafi rayonu da ümumi inkişaf planının tərkib hissəsi kimi turizmdə əhəmiyyətli rola malikdir. Məhz bu baxımdan, iqtisadi-coğrafi rayonun turizm potensialı nəzərə alınaraq, iqtisadi və sosial inkişafa nail olmaq üçün ərazinin təbii rekreasiya ehtiyatlarından, tarixi-memarlıq abidələrindən, maddi-texniki bazasından səmərəli istifadə edərək, ümumi inkişafı təmin etmək olar. Bu səbəbdən "Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda turizm-rekreasiya ehtiyatlarının qiymətləndirilməsi" mövzusu olduqca aktualdır.

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda turizm-rekreasiya ehtiyatlarının hazırkı vəziyyəti və onların təhlili ərazinin inkişafı baxımından çox əhəmiyyətlidir. Mövcud turizm-rekreasiya ehtiyatlarının dəyərləndirilməsi, onlardan iqtisadi, sosial və ekoloji baxımdan kompleks istifadə müasir turizm bazarının formalaşmasına və inkişafına təsir göstərir. Tədqiqat regionumuz olan Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda turizm-rekreasiya potensialı tam olaraq öyrənilməmişdir. İqtisadi-coğrafi rayonun təbii şəraiti, tarixi-coğrafi xüsusiyyətləri, iqtisadi potensialı və əmək ehtiyatları nəzərə alınmaqla regionun kompleks təhlilinin aparılması və turizm-rekreasiya ehtiyatlarının rayonlaşdırılması tələb olunur ki, bu da ümumi inkişaf tendensiyasını müəyyən etməyə yardımçı olacaqdır.

Tədqiqatın obyektinə Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun tərkibində olan 2 şəhər və 9 rayonun turizm-rekreasiya ehtiyatları,

turizm obyektləri, təbii və tarixi-mədəni abidələr, xidmət sahələri və onların ərazi təşkili aiddir.

Gəncə-Qazax iqtisadi-coğrafi rayonu ilə bağlı bir sıra alim və mütəxəssislərin tədqiqatları olmuşdur. Mütəxəssislər ərazini həm fiziki, həm də iqtisadi-coğrafi cəhətdən araşdırmış, turizm-rekreasiya imkanları barəsində elmi təhlillər vermişlər. Tədqiqat işində isə Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda mövcud olan təbii rekreasiya, tarixi-mədəni və infrastruktur obyektləri tədqiq edilmiş, ərazinin mövcud problemləri, inkişafı mümkün olan turizm növləri göstərilmiş, həmçinin turizmin inkişaf tempinə uyğun rayonlaşdırılma aparılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin yerinə yetirilməsində əsas məqsəd Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun təsərrüfat sistemində turizm sektorunun rolunun kompleks tədqiqi, mövcud problemlər və onların həlli yollarının müəyyənləşdirilməsidir. Məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

−ərazinin təbii şəraitinin və turizm-rekreasiya ehtiyatlarının qiymətləndirilməsi;

−mövcud və perspektiv turizm növlərinin potensial imkanlarının tədqiqi;

−turizm sektorunun inkişafında infrastruktur obyektlərinin rolunun müəyyən edilməsi;

−turizm-rekreasiya ehtiyatlarının qiymətləndirilməsi və rayonlaşdırılmasının aparılması;

−yeni turizm marşrutlarının hazırlanması və bu istiqamətdə təkliflərin verilməsi.

**Tədqiqat metodları.** Dissertasiya işinin yazılması zamanı tarixilik-ərazilik, statistika, müqayisə, kartoqrafik, tipoloji, çöl tədqiqat, sistemli təhlil, rayonlaşdırma və yeni texnologiyaların tətbiqi (ArcGIS) metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

−Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda turizm-rekreasiya ehtiyatlarının qiymətləndirilməsi.

−Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda turizm təsərrüfatının inkişafı üçün beynəlxalq təcrübənin öyrənilməsi və müxtəlif istiqamətli turizm marşrutlarının təşkili.

−Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda turizm təsərrüfatının rayonlaşdırılması və yeni turizm növlərinin tətbiqi yolları.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində ilk dəfə olaraq Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun turizm-rekreasiya ehtiyatları təhlil edilmiş və bu ehtiyatların kompleks şəkildə qiymətləndirilməsi aparılmışdır. Ərazinin coğrafi mövqeyi, təbii şəraiti, iqlim ehtiyatları, tarixi və mədəni irs nümunələri, maddi-texniki bazası, müasir infrastrukturu, mövcud turizm növləri və perspektiv istiqamətlərinin öyrənilməsi sahəsində tədqiqat işləri aparılmış və iqtisadi-coğrafi rayonda davamlı iqtisadi inkişafa keçid üçün mövcud imkanlardan istifadə yolları müəyyən olunmuşdur.

Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

−Turizm-rekreasiya ehtiyatlarının kompleks təhlili aparılmış və qiymətləndirilməsi həyata keçirilmişdir;

−Turizm potensialı nəzərə alınaraq yeni turizm növlərinin inkişaf istiqamətləri müəyyən olunmuşdur;

−Turizm təsərrüfatının rayonlaşdırılması aparılmışdır;

−Yerli turizm-rekreasiya ehtiyatlarından səmərəli istifadəsini nəzərə alaraq yeni turizm marşrutları təklif edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat prosesində alınan nəticə və verilən təkliflər Azərbaycan Respublikası Mədəniyyət Nazirliyində, Azərbaycan Respublikası Turizm Agentliyində, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində, regionlardakı turizm informasiya mərkəzlərində, mədəniyyət və turizm şöbələrində, ali təhsil müəssisələrində, həmçinin, turizm istiqamətli tədqiqat işlərində istifadə edilə bilər.

Tədqiqatda yer alan turizm marşrutları Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən istifadə ediləcəkdir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusuna uyğun olaraq aşağıdakı elmi konfranslarda və seminarlarda məruzələr edilmişdir: “Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər” mövzusunda II Beynəlxalq elmi-

praktiki konfrans (Bakı, 2015), "Coğrafiya: Nəzəriyyə, praktika və innovasiya" adlı konfrans (Bakı, 2015), "Сервису и туризму-инновационное развитие" adlı VII beynəlxalq elmi-praktik konfrans (Sankt-Peterburq, 2016), "Peoples of Eurasia: History, Culture and İnteraction problems" adlı VI beynəlxalq elmi-praktik konfrans (Praqa, 2016), "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" mövzusunda III Beynəlxalq elmi-praktiki konfrans (Bakı, 2017).

Tədqiqat mövzusu ilə əlaqədar 14 elmi məqalə çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universiteti "Turizm biznesi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşin həcmi 145 səhifədir. İş 10 qrafik, 8 cədvəl, 6 xəritə-sxem, 120 adda ədəbiyyat siyahısından ibarətdir. Giriş – 4 səhifə, I fəsil – 22 səhifə, II fəsil – 56 səhifə, III fəsil – 48 səhifə, nəticə 2 səhifə, ədəbiyyat siyahısı – 11 səhifədir. Cədvəlsiz, qrafiksiz, şəkilsiz və ədəbiyyat siyahısız 30534 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı və işləmə dərəcəsi, məqsəd və vəzifələri, metodoları, müdafiə çıxarılan əsas müddəalar, elmi yenilikləri, praktiki əhəmiyyəti müəyyən edilir.

Birinci fəsil "**Turizm-rekreasiya təsərrüfatının ölkənin sosial-iqtisadi inkişafında rolu və öyrənilməsinin əhəmiyyəti**"nə həsr olunmuşdur. Bu fəsildə ölkənin təsərrüfat sistemində turizmin rolu, turizm rekreasiya ehtiyatlarının öyrənilməsinin nəzəri-metodiki əsasları və turizmin inkişafının tarixi-coğrafi xüsusiyyətləri tədqiq edilmişdir.

Ölkənin təsərrüfat sistemində turizmin rolu böyük deyil. Bu baxımdan turizmin dünya və Azərbaycan iqtisadiyyatındakı rolu təhlil edilmişdir. Turizm dünyanın ÜDM-in 10%-ni təşkil etməklə yanaşı, xidmət sahələrinin də 6%-ni özündə birləşdirir. Həmçinin, turizm bir sənaye sahəsi kimi metallurgiya, avtomobil və neft

sənayesindən sonra dünya bazarında ən çox gəlir gətirən sahə kimi dördüncü yeri tutur. Hazırda dünyada 235 mln. nəfər bu sahədə çalışır. Dünyada mövcud olan hər 11 iş yerindən biri turizmə aid edilir[1].

2015-ci ildə Azərbaycanda turizm təsərrüfatı ÜDM-in 2,7%-ni təşkil etmişdir. Bu göstərici 2019-cu ildə isə 2,4% olmuşdur (qrafik). 2011-ci ilin "Turizm ili" elan olunması ölkədə turizmin inkişafını sürətləndirsə də, dünyanı əhatə edən pandemia bu sahənin inkişafını ləngitmişdir. 2011-ci ildə ölkənin turizm təsərrüfatına 1407,8 mln. manat investisiya qoyulmuşdur ki, bunun da nəticəsində turizm sektoru sürətlə inkişaf etməyə başladı. Qısa zaman ərzində yeni mehmanxanalar inşa edilmiş, ölkəyə gələn turistlərin sayı isə 2 dəfə artmışdır[2].

Ölkənin ümumi təsərrüfat sisteminə nəzər salsaq görərik ki, turizm iqtisadiyyatdakı payına görə yalnız informasiya və rabitə (1,8%) sektorundan üstündür[3]. Turizm daha perspektivli və qısa müddət ərzində gəlir gətirən sahə olsa da, sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, ticarət, sosial xidmətlər və s.-dən geri qalır (Qrafik).




Mənbə: Azərbaycanın Milli Hesabları. ARDSK, 2020.

Qrafik. Turizmin Azərbaycan iqtisadiyyatında yeri, %-lə

[1] International Tourism Highlights. UNWTO. – Madrid: – 2020, – 4 p.
[2] Azərbaycanda turizm / tərt. et. T.Budaqov. – Bakı: DSK, – 2021, – 26 s.
[3] Azərbaycanın Milli Hesablar / tərt. et. T.Budaqov. – Bakı: ARDSK, – 2020. – 8 s.

Azərbaycan Respublikasının iqtisadi-coğrafi rayonları arasında turizm sektorunun müqayisəli təhlili nəticəsində məlum olmuşdur ki, Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun turizm-rekreasiya ehtiyatları daha az öyrənilmişdir. Ölkəmizdə turizm təsərrüfatının inkişafı, bu istiqamətdə aparılan tədqiqatların da digər sahələrlə müqayisədə azlıq təşkil etməsi bu prosesi daha da ləngidir. Alim və mütəxəssislər bütövlükdə iqtisadi-coğrafi rayonun turizm-rekreasiya ehtiyatlarını deyil, ayrı-ayrı rayonların, yaxud turizm növlərinin hər hansı birini araşdıraraq təhlil etmişlər.

Azərbaycanda turizm təsərrüfatını ilk öyrənən alim Y.A.Kotlyarov olmuşdur. O, 1970-ci ildə "Azərbaycanda turizmin inkişafında coğrafi şərait" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1973-cü ildə A.H.Salmanov "Azərbaycanın dəniz sahili zonasında kurort təsərrüfatının coğrafi problemləri", 1974-cü ildə R.M.Qasımov "Azərbaycan SSR-də turizm komplekslərinin formalaşması və inkişafında sosial-iqtisadi problemlər" mövzusunda namizədlik dissertasiyalarını müdafiə etmişlər. A.H.Salmanov 1991-ci ildə "SSRİ-nin arid zonaları əhalisinin istirahətinin ərazi təşkili" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Z.N.Eminov isə 1996-cı ildə Azərbaycan Respublikasında əhalinin vahid məskunlaşması sisteminin formalaşdırılması və inkişafı: (Gəncə iqtisadi rayonunun timsalında) dissertasiyasını müdafiə etmişdir. Daha sonra turizmin bu və ya digər problemləri ilə V.S.Dərgahov "Azərbaycanın Xəzərsahili ərazisində rekreasiya ehtiyatlarının iqtisadi-coğrafi cəhətdən qiymətləndirilməsi" (2004), S.M.Zülfüqarova "Abşeron regionunun turizm-rekreasiya ehtiyatları və onlardan istifadənin coğrafi məsələləri" (2008), S.İ.Sultanlı "Azərbaycanda turizmin inkişafının iqtisadi-coğrafi xüsusiyyətləri" (2008), A.O.Adilov "Azərbaycan Respublikasında daxili turizm və onun inkişaf perspektivləri" (2013), S.Q.Həsənov "Türkiyə Respublikasında turizm sənayesinin ərazi təşkili təcrübəsi və ondan Azərbaycanda istifadənin əsas istiqamətləri" (2013) tədqiqat işlərində öz əksini tapmışdır.

Qeyd olunan tədqiqatçılarla yanaşı, Ə.C.Əyyubovun "Azərbaycan SSRİ-nin kurort və istirahət yerlərinin iqlimi" (1987), N.A.Babaxanovun "Azərbaycan Respublikasının təbii ehtiyat

potensialının təsərrüfat baxımdan qiymətləndirilməsi və ətraf mühitin mühafizəsi” (2007), H.B.Soltanovanın “Azərbaycanda turizm və onun inkişafı” (2015), C.A.Məmmədov “Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları” (2004), V.S.Dərgahovun “Rekreasiya-turizm ehtiyatları” (2008), B.Ə.Bilalov “Turizmin tarixi” (2008), Z.T.İmrani “Azərbaycanda təsərrüfatın ərazi təşkilinin iqtisadi-coğrafi xüsusiyyətləri” (2014), G.R. Ağakişiyeva “Azərbaycanda təsərrüfatın bir sahəsi kimi turizmin inkişaf problemləri” (2018), S.H.Rəhimov “Ekskursiya işinin təşkili” (2004), və s. alimlərin elmi əsərlərində turizm təsərrüfatı geniş təhlil edilmişdir.

Respublikamızda turizm təsərrüfatının inkişafı ilə əlaqədar geniş miqyaslı araşdırmaların aparılması son dövrlərə təsadüf etsə də, dünya ölkələrində turizm artıq bir sənaye sahəsinə çevrilmişdir. Bu sahə ilə məşğul olan Türkiyə mütəxəssislərindən Deniz Karagöz, Çağıl Hale Özel, H.Suavi Ahipaşaoğlu, İrfan Arıkan, Faruk Pekin, Orhan Batman, Rusiyadan M.B.Birjakov, V.İ.Nikifirov, A.B.Babkin, E.L.Draçeva, Y.V.Zabaev, B.V.Emelyanov, V.A.Kvartalnov, xaricilərdən isə Kristafor Hollovay J., Fennel David, Maykıl J.O’Fallen, Denney G.Rutherford, Stephen J.Page və b. misal göstərmək olar.

Dissertasiyada Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda turizmin inkişaf tarixi təhlil edilmişdir. Araşdırmalar göstərir ki, 1960-cı ildə Göygöldə, 1966-cı ildə Hacıkənddə turizm bazası, 1967-ci ildə isə Gəncə şəhərində ekskursiya bürosu yaradılmışdır. Həmçinin Qarabağ münaqişəsinin daxili turizmin inkişafına olan mənfi təsiri və müstəqillikdən sonra turizmin inkişafı ilə bağlı qəbul edilmiş qərarlar bu sahəyə olan diqqətin göstəricisidir.

İkinci fəsildə **“Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun turizm-rekreasiya təsərrüfatının inkişafı”** təhlil olunmuşdur. Bu fəsildə ərazinin təbii-rekreasiya və tarixi-mədəni ehtiyatları, onlardan istifadə yolları, infrastruktur obyektləri və turizm-rekreasiya təsərrüfatının sosial-iqtisadi əhəmiyyəti öyrənilmişdir.

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun ərazisi 12,48 min km$^2$ olmaqla, ölkə ərazisinin 14,4%-ni təşkil edir. 2021-ci ilin

göstəricilərinə əsasən ərazinin əhali sayı 1298900 nəfərdir. [4]Bu iqtisadi-coğrafi rayonun tərkibinə Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncə və Naftalan şəhərləri daxildir. Bu fəsildə iqtisadi-coğrafi rayonun turizm-rekreasiya ehtiyatları tədqiq edilmiş və daha cəlbedici obyektlər müəyyən olunmuşdur (Cədvəl 1).

Cədvəl 1

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun təbii-rekreasiya ehtiyatları

| Göstəricilər | Obyektlər |
|---|---|
| Geomorfoloji | Keçidərəsi, Haçaqaya dağı, Keşikiçidağ mağaralar kompleksi, Göyəzən dağı, Avey mağarası, Daşkəsən rayonunda yerləşən mağara, yaylaqlar və s. |
| İqlim | Gəncə-Qazax maili düzənliyində və Ceyrançöl hissəsində yayı isti quraq, qışı mülayim, yumşaq keçən yarımsəhra quru çöl iqlimi, orta illik tenperatur +10+14°C, dağlıq ərazilərdə isə qışı quraq keçən mülayim-isti iqlim, orta illik temperatur +6+10°C. |
| Hidroloji | Kür çayı və qolları, Şırşır şəlaləsi, Göygöl, Maralgöl, Qələmçə, Damcılı bulağı, Yanar su və s. |
| Balneoloji | Naftalan nefti, hidrokarbonatlı və sulfidli sular, mineral sular və bulaqlar. |
| Xüsusi qorunan təbiət əraziləri | Göygöl Milli parkı, Qarayazı Dövlət təbiət qoruğu, Eldar şamı Dövlət təbiət qoruğu, Korçay Dövlət təbiət qoruğu, Qarayazı-Ağstafa Dövlət Yasaqlığı, Qızılca Dövlət yasaqlığı, Şəmkir Dövlət yasaqlığı. |

Gəncə-Qazax iqtisadi-coğrafi ərazisində dağətəyi və düzənlik yarımrayonunda orta illik temperatur 12-14°C, yanvar -1° (şaxta), iyul 24-25°C, yağıntıları 250-350 mm arasında tərəddüd edir, yağıntılı dövr yaz və payızın əvvəli, quraq dövr qışdır. İsti dövrdə tufan, leysan, yağışlar nadir hallarda müşahidə edilir, qar örtüyü davamlı deyil, qərb küləkləri hakimdir. Alçaqdağlıq yarımrayonda

[4] Azərbaycanın əhalisi – 2020. – Bakı: DSK, – 2021. – 67 s.

orta illik temperatur 10-12°C, yanvar -2°C (şaxta), iyul 18-20°C, yağıntılar əvvəli yarımrayonla eynidir. Tufan, dolu, leysan yağışlar nisbətən çox təkrarlanır, qar örtüyü bir neçə ay qalır, dağ-dərə küləkləri hakimdir. Dağlıq yarımrayonda orta illik temperatur 9-10°C, yanvar -2-10°C (şaxta), iyul 10-19°C-ə qədər, yağıntıları 500-900 mm, yağıntılı dövr yazın axırı, yayın əvvəlidir. Yay aylarında güclü leysanlar və dolu düşməsi müşahidə edilir. Qar uzun müddət qalır, dağ-dərə küləkləri hakimdir[5].

Gəncə-Qazax iqtisadi-coğrafi rayonu ərazisinin iqliminə diqqət yetirdikdə dağətəyi və düzənlik yarımrayonu turizm cəhətdən geniş imkanlara malikdir. Burada müalicə-sağlamlıq, rekreasiya və s. kimi turizm növlərini inkişaf etdirmək olar. Aşağı dağlıq yarımrayon isə yalnız qış turizm növləri üçün dəyərləndirilə bilər.

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda çay şəbəkəsinin sıxlığını və onların əsasən dağ çaylarından ibarət olmasını nəzərə alsaq, bu istiqamətlərdə trekkinq və haykinq kimi yürüşlərin keçirilməsinə əsas verir. Ərazidə Kür çayı və qolları, Şırşır şəlaləsi, Göygöl, Maralgöl, Mingeçevir, Şəmkir, Yenikənd su anbarı, Qələmçə, Damcılı bulağı, Yanar su hidroloji təbii-rekreasiya ehtiyatları var.

Dağlıq ərazilərdə yay aylarının sərin olması və quraq günlərin sayının azlıq təşkil etməsi burada turizm təsərrüfatının inkişafına zəmin yaradır. Bu da yay mövsümü müddətində əraziyə gələn turistlərin sayına təsir göstərməklə yanaşı, müxtəlif turizm növlərinin (atla gəzinti, ekoturizm, kənd turizmi və s.) inkişafına təkan verə bilər. Lakin hazırda bu ərazilərə gələn turistlərin sayı azlıq təşkil edir. İqtisadi-coğrafi rayonun rəngarəng landşafta malik ekoturizm ərazilərinə aşağıdakılar aid edilir: Zivlən kəndi, Göygöl yaylağı, Comadaşı yaylağı, Uzungüney yaylağı, Qoca dərəsi yaylağı, Alaxançallı kəndi, Zincirli yaylağı, Turşsu seyrəngahı, Dəli Alının yurdu, Qoşqarçay, Xoşbulaq yaylaqları, Qabaqtəpə və Astaf kəndlərinin ətraf sahələri.

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda yerləşən mineral sular həm müalicəvi, həm də süfrə suyu kimi istifadə edilə bilər. Mineral

[5] Müseyibov, M.A. Azərbaycanın fiziki coğrafiyası. – Bakı: Maarif, – 1998, – 42 s.

sular əsasən Gədəbəy, Daşkəsən, Qazax, Goranboy və Göygöldə daha çox cəmlənmişdir. Gədəbəydə 50-dən artıq mineral su mənbəyi mövcuddur ki, onların da tərkibi hidrokarbonatlı və sulfidli sulardan ibarətdir. Ən məşhur mineral sulara Slavyanka (21,6 min l/gün), Şəmkir (43,2 min l/gün), Qalakənd (108 min l/gün), Çaldağ, Çayqarışığı (216 min l/gün), Qızılca (86,4 min l/gün), Narzan, Mormor və s. aiddir. Həmçinin Qazaxda Salahlı (10,8 min l/gün), Aşağı Salahlı (21,6 min l/gün), Əskipara (5,4 min l/gün) və Əzizbəyli (2,7 min l/gün), Tovuzda isə Şamlıq (2,7 min l/gün), Kazımlı (10,8 min l/gün), "Kəndalar" (43 min l/gün), Şınıx (8064 min l/gün), Daşkəsəndə Yuxarı Daşkəsən (4,3 min l/gün), Aşağı Daşkəsən (5,4 min l/gün), Alaxançallı (108 min l/gün), Qabıqtala (4,3 min l/gün) kimi mineral sular da mövcuddur[6].

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun zəngin tarixi-mədəni ehtiyatları vardır. Belə ki, burada dünya əhəmiyyətli 1 memarlıq və 9 arxeoloji abidə qeydə alınmışdır. Ölkə əhəmiyyətli 32 memarlıq, 259 arxeoloji, 5 bağ-park, monumental və xatirə abidələri müəyyən edilmişdir. İqtisadi-coğrafi rayonda yerli əhəmiyyətli abidələrin sayı daha çoxdur və daxili turizmin inkişafı üçün böyük potensiala malikdir. Bunlara 373 memarlıq, 37 arxeoloji, 19 bağ-park, monumental və xatirə, 8 dekorativ tətbiqi sənət abidələri aiddir (xəritə-sxem 1)[7].

Samux rayonununda antik dövrə aid məbəd, Goranboy şəhərində V-VI əsrlərə aid qədim Şatal şəhər qalası xarabalıqları, Daşkəsən rayonununda kilsə (1869) və qala (1891), Qədim Şəmkir şəhər xarabalıqları (IX əsr), Gədəbəy rayonunda Koroğlu qalası (XVI əsr),

Tovuz şəhərində Torpaqqala yaşayış yeri (III-VII əsrlər), Qazax rayonunda Şəkərqala məbəd kompleksi (X əsr) maraqlı tarixi-memarlıq abidələridir. Həmçinin, Göygöldə Zurnabad kəndi yaxınlığında XII əsrə aid qala, şəhərdəki lüteran kilsəsi (1854), Gəncə şəhərində yerləşən göy kaşı gümbəzli İmamzadə, Nizami Gəncəvinin məqbərəsi, Şah Abbas məscidi (XVI əsr) və s. kimi nümunələr mühüm abidələrdəndir. Qazax, Daşkəsən, Gədəbəy, Ağstafa və s. kimi rayonlarda yerləşən Alban abidələri isə memarlıq

---

[6] Dərgahov, V.S. Rekreasiya-turizm ehtiyatları. – Bakı: MBM, – 2008, – 61 s.
[7] Gəncə-Qazax iqtisadi rayonunun pasportu. – Bakı: – 2015, – 23 s.

cəhətdən əhəmiyyətli olmaqla yanaşı, tarixi rolu da ölkə üçün əhəmiyyətlidir[8]. Tarixi-memarlıq nümunələrindən istifadə edərək, davamlı turizmin inkişafını əldə etmək mümkündür.




Xəritə-sxem 1. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun tarixi-mədəniyyət abidələri və turizm-rekreasiya ehtiyatları xəritəsi

---

[8] Abadov, M.K. Azərbaycan turizmi və onun inkişaf problemləri. – Bakı: Şərq-Qərb,– 2014, – 187 s.

İqtisadi-coğrafi rayonunun mədəni ehtiyatları burada mədəni, tarixi, hadisə, etnoqrafik, qastronomik turizm növlərinin inkişafına imkan yaradır. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda infrastruktur obyektlərindən turizm təsərrüfatında istifadə imkanları böyükdür.

Nəqliyyat, mehmanxana, qidalanma və əyləncə müəssisələri barəsində tədqiqat aparılmış, nəticələrə əsasən 2005-ci ildə Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda 27 mehmanxana təsərrüfatı fəaliyyət göstərsə də, növbəti illərdə bu göstərici artmış və 2020-ci ildə 46 olmuşdur. Onlarda birdəfəlik tutum 2020-ci ildə 3392 yer olub, onun da 40%-i təkcə Gəncə şəhərinin payına düşmüşdür[9].

Son illər iqtisadi-coğrafi rayonda müalicə turizmi inkişaf etdirilən sahələrdən biridir. Belə ki, ərazidə yeni kurort və sanatoriya müəssisələri tikilmiş, bir sıra müalicəvi əhəmiyyətə malik olan yerləşdirmə müəssisələri təmir edilmişdir. Bunlara, Naftalan şəhərində “Naftalan”, “Möcüzəli Naftalan”, “Sehrli Naftalan”, “Rixos Naftalan”, “Chinar hotel and spa Naftalan”, “Qarabağ SPA and Resort”, “Qaşaltı” sanatoriyaılarını misal göstərmək olar. Bu yerləşdirmə müəssisələrində Naftalan neftindən əsəb, ginekoloji, uroloji və dəri xəstəliklərinin, eləcə də, qara ciyər xəstəliklərinin, oynaqların və dayaq-hərəkət aparatına aid oynaqdan kənar yumşaq toxumaların müalicəsi üçün istifadə edilir. Dəriyə sürtülərkən məlhəm yumşaldıcı, dezinfeksiyaedici və ağrıkəsici təsir göstərir.

Qeyd olunan müsbət hallarla yanaşı, iqtisadi-coğrafi rayonun turizm potensialı müqayisəli təhlil edilmiş və regiona gələn turistlərin sayında azalma tendensiyası müşahidə olunmuşdur. Belə ki, iqtisadi-coğrafi rayona səfər edənlər 2015-ci ildə 89847 nəfər olduğu halda, 2019-cu ildə bu göstərici azalaraq 78665 nəfər olmuşdur. Səfər edənlərin çox hissəsi, yəni, 71,4%-i işğuzar, yerdə qalan 14,5%-i istirahət, 13,9%-i müalicə, 0,2%-i isə digər məqsədlərlə etmişdir[10].

Turistlərin cəlb olunaraq daha uzun müddət ərazidə qalması üçün mədəni və sosial dəyərlərlə yanaşı, yerləşmə müəssisələrinin də bir sıra özəllikləri olmalıdır. İstənilən müəssisədə xidmətin düzgün təqdimatı mühüm əhəmiyyətə malikdir. Apardığımız araşdırmalar

---

[9] Azərbaycanda turizm / tərt. et. T.Budaqov. – Bakı: DSK, – 2021, – 47 s.
[10] Azərbaycanda turizm / tərt. et. T.Budaqov. – Bakı: DSK, – 2021, – 58 s.

nəticəsində müəyyən edilmişdir ki, regiona gələn turistlərin sayının artırılması məqsədi ilə müxtəlif əyləncə mərkəzlərinin tikilməsinə ehtiyac duyulur.

Üçüncü fəsil **"Turizm-rekreasiya təsərrüfatının inkişaf perspektivləri"** adlanır. Bu fəsildə dövlət proqramları üzrə turizm təsərrüfatında həyata keçirilən tədbirlər, turizm təsərrüfatının inkişaf problemləri və onların aradan qaldırılması istiqamətləri, turizm-rekreasiya təsərrüfatının inkişaf xüsusiyyətlərinə görə rayonlaşdırılması aparılmışdır.

"Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı"[11] ölkədə turizmin təşviqinə təkan verən ilk proqram olmuşdur. Dövlət Proqramı çərçivəsində Gəncə-Qazax iqtisadi-coğrafi rayonuna gələn turistlərin tələbatlarını ödəmək məqsədi ilə zəruri xidmətlərin, ekskursiya və digər mədəni tədbirlərin çeşidinin genişləndirilməsi və müasir standartlara cavab verməsi nəzərdə tutulmuşdur. Gədəbəy rayonunda mineral suların qablaşdırılması və səmərəli istifadəsi, Goranboy rayonunda turist bazasının yaradılması, Qazax rayonunda mehmanxana xidmətinin təşkili və s. kimi addımlar qeyd olunmuşdur. Bununla yanaşı, iqtisadi-coğrafi rayonda mehmanxanaların və digər turizm obyektlərinin tikintisi genişləndirilmişdir. Bakı-Qazax istiqamətində bir sıra yeni turizm marşrutları təşkil edilmişdir.

"Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"nda[12] əsas müddəalardan biri Naftalan neftindən səmərəli istifadə və istismarına nəzarətin gücləndirilməsi olmuşdur. Naftalan kurortuna yaxın ərazilərdə yerləşən tarixi abidələr və digər görməli yerlərlə bağlı turist marşrutlarının hazırlanması, eləcə də kurortunun nəzdində ekskursiyaların təşkil də nəzərdə tutulmuşdur. 2009-2011-ci illərdə isə Naftalan kurortunda yerləşdirilmiş qaçqın və məcburi köçkünlərlə əlaqədar olan problem

---

[11] Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı. – Bakı, 2007. URL: http://www.e-qanun.az/framework/1615

[12] Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı. – Bakı, 2009. URL: http://www.e-qanun.az/alpidata/framework/data/16/c_f_16143.htm

öz həllini tapmış və onların yeni salınan qəsəbələrə mərhələli şəkildə köçürülmüşlər.

"Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nda[13] bir sıra turizm növlərinin inkişafı nəzərdə tutulmuşdur. Proqram çərçivəsində Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda kənd, ekoloji, müalicə-sağlamlıq, mədəni və s. turizm növlərindən asılı olaraq turizm-rekreasiya zonalarında müvafiq infrastrukturun yaradılması tələb kimi qarşıya qoyulmuşdur. Bu illər ərzində iqtisadi-coğrafi rayonunda bir sıra abidələr, arxeoloji ərazilər və tarixi binalar bərpa edilmişdir. Bunlara Nizami məqbərəsi, Çökək hamam, İmamzadələr məqbərəsi, həmçinin Tovuz, Şəmkir ərazilərindəki arxeoloji mərkəzlər və s. bu kimi obyektləri qeyd etmək olar.

2016-cı ildə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" [14]də turizmin inkişafı ilə bağlı olan tədbirlərdən biridir. Yol Xəritəsində regionların turizm cəhətdən inkişafı üçün təbliğat-təşviqat tədbirlərinin keçirilməsi, uyğun qiymətlərə turizm infrastrukturunun yaradılması nəzərdə tutulmuşdur. Onlarda sağlamlıq, mədəni, qış, işgüzar və davamlı turizm növlərinin formalaşdırılması, potensialdan istifadə edərək marşrutların hazırlanması qeyd olunmuşdur.

Gəncə-Qazax iqtisadi-coğrafi rayonuna gələn turist sayının artırılması məqsədi ilə tərəfimizdən bir sıra tematik ekskursiyalar təklif edilmişdir. Tematik ekskursiyalar isə hər hansı bir şəhərdə mövcud olan mövzu ilə əlaqədar reallaşdırılır. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda Gəncə şəhəri, Göygöl ərazisi və s. kimi yerlər buna əyani misal ola bilər. Tematik-xronoloji ekskursiyalar istənilən şəhərdə tarixi dövr ərzində inşa edilmiş müxtəlif nümunələri əks etdirir. Bunlara, memarlıq nümunələri ilə yanaşı arxeoloji qazıntılar zamanı aşkar edilmiş ərazilər də aiddir. Şəmkir və Tovuz

---

[13] Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət proqramı. – Bakı, 2010. URL: http://www.e-qanun.az/framework/19342

[14] Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. – Bakı, 2016. URL: https://mida.gov.az/documents/Turizm_sənayesinin_inkişafına_dair_strateji_yol_xeritesi.pdf

rayonlarında məhz bu tipli ekskursiyaların təşkili turistlər tərəfindən maraqla qarşılana bilər.

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda turizmin inkişafı və mövcud problemlərin aradan qaldırlması ilə əlaqədar aşağıdakı turist marşrutlarını təklif etmək mümkündür:

**Birinci istiqamət** "Tariximiz Alban abidələri" – Daşkəsən rayonu Bayan kəndi yaxınlığında Bayan monastırı, Gədəbəy rayonu Şəmkirçayın sol sahili (Mahrasa Alban abidəsi), Çaldaş kəndində abidə, Qazax rayonu Aşağı Əskipara kəndində abidə, Aveydağ silsiləsində yerləşən Avey monastırı, Tovuz rayonu Əsrik Cırdaxan kəndində abidə, Ağstafa Keşikçidağ Dövlət Tarixi-Mədəniyyət qoruğu (xəritə-sxem 2).

Nəzərə alsaq ki, Alban abidələri Azərbaycan Respublikasının tarixi və ərazi bütövlüyü barəsində əhatəli məlumat verə bilər, deməli, bu kimi marşrutların hazırlanması həm daxili, həm də gəlmə turizm iştirakçılarına maraqlı ola bilər.

**İkinci istiqamət** "Qurman turizmi" – Gəncə şəhəri, Şəmkir, Tovuz və Gədəbəy rayonları. Gəncə dovğası, Gəncə paxlavası, Gəncə çığırtması, Tovuzda qatlama, qovutlu Xıdır Nəbi, axsoğlax, sini xəngəl, qurud, körəməz, Gədəbəydə cincilim, kətə, kartoflu xəngəl və s. kimi nümunələrin hazırlanması və dadına baxmaq turistlər üçün maraqlıdır.

**Üçüncü istiqamət** "Eko tur" – Daşkəsən rayonunda Əmirvar kəndi (Qarainək zağası mağarası), Çanaqçı kəndi (Zağa mağarası), Muşavaq kəndi (Çaxmaq zağası, Boyük Zağa, Maral zağası mağaraları, Şır-şır şəlaləsi), Dəstəfur kəndində şəlalə, Alaxançallı kəndində şəlalə. Xüsusən trekkinq (piyada yürüşlər), haykinq (dağlıq zonalara piyada qalxmaq) və kempinq sevən turistlər üçün əhəmiyyətlidir. Daşkəsən rayonu ilə yanaşı, Tovuz, Gədəbəy və Göygöl rayonlarında da ekoturlar təşkil etmək mümkündür.

**Dördüncü istiqamət** "Kombinə edilmiş tur" – Gəncə şəhəri, Göygöl, Şəmkir, Tovuz, Ağstafa, Qazax rayonlarını əhatə edir. Gəncə şəhərində mədəni turizmlə bağlı tarixi və memarlıq nümunələri ilə tanışlıq, Göygöl ərazisində ekoturizmdə iştirak edərək Göygöl Milli Parkı ilə tanışlıq və etnoqrafik turizmin bir hissəsi kimi alman məskənlərinə səyahət aid edilir.




Xəritə-sxem. 2. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda təklif olunan turizm marşrutları

Həmçinin Şəmkirdə və Tovuzda arxeoloji turizmdə iştirak edərək qazıntılarla tanışlıq mümkündür. Ağstafa və Qazax rayonlarında isə hadisə turizminin nümunəsi olan Aşıq festivalı, mədəni və tarixi əhəmiyyətli yerləri görmək olar.

**Beşinci istiqamət** "Arxeoloji tur" – Şəmkir rayonu orta əsr Şəmkir qalası, Tovuz rayonu Göytəpə Arxeoloji parkı, Ağstafa rayonu Yastıtəpə yaşayış yeri, Qazax rayonu Sarvantəpə yaşayış yerini əhatə edir. Əsasən arxeoloji qazıntılarda iştirak etmək istəyən yaxud bu qədim tarixə malik olan yerləri görmək istəyənlər üçün nəzərdə tutulmuşdur.

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda bir sıra şəhər və rayonların olmasına baxmayaraq, onların hər biri digərindən özünün fiziki-coğrafi xüsusiyyətlərinə görə kəskin surətdə fərqlənirlər.

Aparılmış turizm-rekreasiya təsərrüfatının inkişaf xüsusiyyətlərinə görə rayonlaşdırılmada bu göstəricilər nəzərə alınır. Bu da ərazilərin yerləşdiyi coğrafi mövqeyi, relyefi, iqlim göstəriciləri və s. kimi cəhətlərinə görə turizm növlərinin seçilməsini tələb edir. Deməli, rayon ərazisində turizm üzrə rayonlaşdırılmanın aparılması çox vacib məsələlərdən biridir. Bu kimi bölgü prinsiplərinin həyata keçirilməsi gəlmə turistə çeşid müxtəlifliyinin əks etdirilməsi və istənilən turizm növlərinin birləşdirilərək paket formasında təqdim edilməsinə səbəb olar.

Yuxarıda qeyd olunan amillər nəzərə alınmaqla tərəfimizdən ilk dəfə olaraq, Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda mövcud potensial əsasında rayonlaşdırılma aparılmışdır. Bu zaman, ərazinin təbii-rekreasiya ehtiyatları, tarixi-mədəni obyektləri və infrastrukturu qiymətləndirilmişdir. Ərazidə aparılan rayonlaşdırılma az inkişaf etmiş (1 bal), orta inkişaf etmiş (2 bal) və yaxşı inkişaf etmiş (3 bal) olaraq dəyərləndirilmişdir (cədvəl 2).

Qiymətləndirilməyə əsasən Gədəbəy və Göygöl rayonları təbii-rekreasiya ehtiyatlarının zənginliyi baxımdan daha əhəmiyyətlidir. Bu da təbii amillər nəzərə alınaraq həmin ərazilərdə bu istiqamətə uyğun olan turizm növlərinin inkişafı üçün zəmin yaradır. Ərazidə landşaftların müxtəlifliyi, meşə massivlərinin daha geniş əraziləri

əhatə etməsi, mineral bulaqlar, vəhşi təbiətin komponentləri daha geniş yayılmışdır.

Cədvəl 2

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun turizm potensialının qiymətləndirilməsi

| Potensial | Şəhər və rayonlar | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Gəncə | Qazax | Ağstafa | Tovuz | Şəmkir | Gədəbəy | Daşkəsən | Göygöl | Goranboy | Naftalan | Samux |
| Təbii-rekreasiya ehtiyatları | 5 | 11 | 11 | 11 | 10 | 13 | 11 | 15 | 8 | 7 | 8 |
| Tarixi və mədəni ehtiyatlar | 14 | 12 | 8 | 11 | 6 | 9 | 6 | 10 | 6 | 5 | 5 |
| Turizm İnfrastrukturu | 17 | 8 | 7 | 8 | 7 | 8 | 6 | 10 | 6 | 14 | 6 |
| Cəmi: | 36 | 31 | 26 | 30 | 23 | 30 | 23 | 35 | 20 | 26 | 19 |

Gəncə-Qazax iqtisadi-coğrafi rayonu tarixi və mədəni obyektlər baxımından müxtəliflik təşkil etsə də, rayonlar üzrə qeyri-bərabər paylanmışdır. İqtisadi-coğrafi rayonda tarixi və mədəni obyektlərlə daha yaxşı Gəncə şəhəri, Qazax, Tovuz və Göygöl rayonları təmin olunmuşlar. Burada Alban abidələri, ziyarətgahlar, qədim qəbiristanlıqlar, alman, rus yaşayış məskənləri və s. vardır.

Dissertasiyada iqtisadi-coğrafi rayonun turizm infrastrukturu müxtəlif meyarlar üzrə qiymətləndirilmişdir. Aparılan tədqiqat nəticəsində Gəncə, Göygöl və Naftalan əraziləri turist qəbulu üçün müasir infrastrukturla təmin edildiyi məlum olur.

Aparılan qiymətləndirilməyə əsasən iqtisadi-coğrafi rayonun inzibati ərazi vahidlərinin hər birində turizmin dayanıqlı inkişafını təmin etmək üçün müəyyənləşdirilmiş turizm növləri üzrə bölgü aparılmış və hər bir rayon üzrə inkişaf istiqamətləri müəyyən edilmişdir.

# NƏTİCƏ

1. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda turizm potensialının qiymətləndirilməsi aparılmış, ərazinin təbii-rekreasiya ehtiyatları, tarixi və mədəni ehtiyatlar, turizm infrastrukturu cəhətdən müəyyən olunaraq bal şkalası ilə dəyərləndirilmişdir. Nəticədə iqtisadi-coğrafi rayona daxil edilən Gəncə, Qazax, Göygöl, Naftalan yaxşı inkişaf etmiş, Ağstafa, Tovuz, Gədəbəy orta inkişaf etmiş, Şəmkir, Daşkəsən, Goranboy, Samux isə zəif inkişaf etmiş rayonlar kimi qiymətləndirilmişdir (14).
2. Gəncə-Qazax iqtisadi-coğrafi rayonu ərazisində yerləşən Göygöl milli parkı və digər təbiət abidələrində alternativ turizm növlərinin eyni anda inkişaf etdirmək üçün ekoturizm əhəmiyyətinə malik olan ərazilərin infrastrukturla təminatı, tanıtım, reklam işlərinin düzgün formada aparılmasına ehtiyac var (1, 3).
3. Ərazinin təbii-rekreasiya ehtiyatları ilə yanaşı, tarixi və mədəni dəyərləri də nəzərə alınaraq bir neçə turizm marşrutu təklif edilmişdir. Bu turların köməyi ilə Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda qurman turizmi, mədəni turizm, arxeoloji turizm, ekoturizm və s. kimi turizm növlərinin eyni anda inkişafı mümkündür. Təklif olunan bu marşrutların köməyi ilə əraziyə gələn turistlərin sayını ciddi şəkildə artırmaq mümkündür. Həmçinin ərazinin tarixi və mədəni dəyərlərini, memarlıq üslubunu nəzərə alaraq etnoqrafik turizmin inkişafına da nail olmaq olar (4, 12).
4. Tədqiqat nəticəsində Gəncə şəhərində mədəni və biznes turizmi, Naftalan şəhərində müalicə və sağlamlıq turizmi, Daşkəsən rayonun cənub hissəsində alpinizm, Şəmkirçay ətrafında piyada yürüşlərin təşkili (trekinq), Ağstafa rayonunda balıqçılıq, ovçuluq və quşların müşahidəsi (bördvoçinq), Gədəbəy rayonunda müalicə-sağlamlıq turizmi, alpinizm, mədəni və etnoqrafik turizm, Goranboy rayonunda rekreasiya turizmi, Göygöl rayonunda ekoturizm, kənd turizmi və etnoqrafik turizm, Qazax rayonunda rekreasiya, hadisə və kempinq, Samux rayonunda balıqçılıq, rekreasiya turizmi, Şəmkir rayonunda balıqçılıq, arxeoloji turizm,

Tovuz rayonunda isə alpinizm, kənd turizminin inkişafı üçün geniş imkanların mövcud olduğu təsdiq edilmişdir (4, 6, 9, 11).

## *Təkliflər*

1. İqtisadi-coğrafi rayonda yol qovşaqlarının turizm istiqamətli və məlumatverici nişanlarla (yerləşdirmə, qidalandırma, tarixi və memarlıq nümunəsi, muzey və s.) təchiz olunması, ucqar ərazilərdə yerləşən abidələrə gedən yolların bərpası zəruridir;
2. Kütləvi turizmin formalaşması üçün az büdcəli və aşağı ulduz kateqoriyasına cavab verən yerləşdirilmə müəssisələrinin yaradılması, xidmət çeşidinin artırılması, qiymət və xidmət mütənasibliyinin tənzimlənməsi vacibdir;
3. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun Tovuz, Gədəbəy, Daşkəsən və Qazax rayonlarında yerləşən müalicəvi suların bazasında müasir avadanlıqlarla təchiz olunmuş kurort-sanatoriya komplekslərinin tikintisi üçün tədbirlərin görülməsi lazımdır;
4. Yerli və xarici dillərdə turist xəritələrinin hazırlanması məqsədəuyğun olardı.

## Dissertasiyanın mövzusu üzrə nəşr olunan elmi əsərlərin siyahısı


1. İsmayılova, E.Ə. Göygöldə ekoturizmin inkişafı // "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" mövzusunda II Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı, – 2015, – s. 159-162.
2. İsmayılova, E.Ə. Ölkənin təsərrüfat sistemində turizm-rekreasiyanın rolu // "Coğrafiya: Nəzəriyyə, praktika və innovasiya" elmi məcmuəsi. – Bakı, – 2015. – s. 514-519.
3. İsmayılova, E.Ə. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun təbii rekreasiya ehtiyatları / Lənkəran Dövlət Universitetinin "Elmi Xəbərləri". Riyaziyyat və Təbiət elmləri seriyası. –Bakı, – 2015, – s. 63-69.
4. Исмаилова Э.А. Использование культурных ресурсов Гянджа-Газахского экономика-географического района в

туристических маршрута // Сервису и туризму-инновационное развитие. Материалы VII международной научно-практической конференции. – Санкт-Петербург, – 2016, – с. 109-114.

5. Ismayilova E.A. The features of historical-geographical development of the tourism // Peoples of Eurasia: History, Culture and İnteraction problems. Materials of the VI İnternational scientific conference. – Prague, - 2016, – p. 80-85.
6. İsmayılova, E.Ə. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda müalicə və sağlamlıq turizminin inkişafı / Bakı Universitetinin xəbərləri. Humanitar və təbiət elmləri seriyası. – Bakı: – 2016. №3, – s. 191-197.
7. İsmayılova, E.Ə. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun infrastruktur obyektləri və turizmdə istifadə imkanları // "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" mövzusunda III beynəlxalq elmi-praktiki konfrans. – Bakı, – "Kompas CO" MMC, – 2017. – s. 43-51.
8. Ismayilova E.A. The position of Ganja-Gazakh economical-geographical region in Azerbaijan tourism industry / İnternational Journal of Liberal Arts and Social Science. – Birmingham, – UK, Center for Enhancing Knowledge (CEK). Vol. 5 No. 2, – 2017, – p. 27-31.
9. İsmayılova, E.Ə. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda kənd turizminin inkişafının potensial imkanları / Naxçıvan Dövlət Universiteti "Elmi əsərlər". İctimai elmlər seriyası. – Naxçıvan, – 2017. №1(5) – s. 300-304.
10. İsmayılova, E.Ə. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun mədəni turizm imkanları / Coğrafiya və təbii resurslar jurlanı. Azərbaycan Coğrafiya Cəmiyyətinin Elmi əsərləri. – Bakı, – 2017, – s. 94-97.
11. İsmayılova, E.Ə. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda qurman turizminin inkişaf imkanları // "Azərbaycan Respublikasında turizm-rekreasiya zonalarının yaradılmasının perspektivləri" mövzusunda Respublika elmi-praktiki konfransın materialları. – Bakı, – 2018, – s. 253-256.

12. Ismayilova E.A. Opportunities for organizing new tourist routes in the Ganja-Gazakh economic and geographical region of the Republic of Azerbaijan. Российский Научный журнал. Вестник национальной академии туризма. Реалии и перспективы отечественного туризма. – Санкт-Петербург, – «СМДЖИ ПРИНТ». N 1 (53), – 2020, – p. 52-55.
13. Ismayilova E.A. Opportunities to use the tourism potential of Tovuz region of the Republic of Azerbaijan. Географія та туризм: науковий журна/ред. Кол.:Запотоцький С.П. (пол. Ред.) та ин. – Киів, – 2020, – К.: Альфа – ПК. – Вип. 56 – 60 с. – с.15-21.
14. İsmayılova, E.Ə. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun turizmin inkişaf xüsusiyyətlərinə görə rayonlaşdırılması. Pedoqoji Universitetin xəbərləri. Riyaziyyat və təbiət elmləri seriyası. – Bakı, – 2020. C.68, N 2, – s. 132-134.

Dissertasiyanın müdafiəsi “10” fevral 2022-ci il tarixində, saat $14^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED1.23 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az1143, Bakı şəhəri, H.Cavid prospekti 115, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu.
Email: institute@geograph.science.az

Dissertasiya işi ilə AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron nümunələri www.igaz.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “7” yanvar 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.01.2022

Kağızın formatı: A5

Həcm: 31176

Tiraj: 100